**UOT:** 1 (091).; 323.
**KBT:** 87.3(4\8)
**MJ №** 133

# Azərbaycan xalqının milli özünüdərk prosesində Əli bəy Hüseynzadənin müasirləşmə yolu

**Türkan Məmmədova***

**Abstrakt.** Məqalə Əli bəy Hüseynzadənin Azərbaycanda milli özünüdərk və siyasi oyanışın gerçəkləşməsi prosesində göstərdiyi xidmətinin tədqiqinə həsr edilmişdir. Xalqın inkişafının davamlılığını təmin etmək uğrunda mübarizə aparan görkəmli islahatçı və mütəfəkkir yaşadığı dövrdə Qərbin elm və texnologiyada üstünlüyünü, Şərqin bu inkişafdan geri qalma səbəblərini müəyyən etməyə səy göstərir. Məqalədə onun fəaliyyəti üç istiqamətdə araşdırılır:

Məqalənin birinci hissəsi müasirləşmə yolunda Qərbdəki elmin Şərqə tətbiqi məsələsinə həsr edilmişdir. Burada əsasən əsərlərinə istinadən onun güclü cəmiyyət qurmaq üçün təqdim etdiyi prinsiplər öz əksini tapır.

İkinci hissədə güclü cəmiyyətin formalaşdırılması yolunda ideoloqun təhlükə kimi qiymətləndirdiyi mühafizəkarlıq və təqlidçilik kimi iki amil təhlil edilmişdir. Bu iki tərəf mütəfəkkir tərəfindən xalqın inkişafı qarşısında dayanan ən böyük təhlükə kimi qiymətləndirilir.

Məqalənin üçüncü hissəsində azad idarəetmə uğrunda mübarizəsinə həsr edilmiş ideoloji fikirlərinə münasibətə toxunulmuşdur.

Nəticədə ideoloqun milli özünüdərk prosesində göstərdiyi xidmətlər bir daha vurğulanır.

**Açar sözlər:** Əli bəy Hüseynzadə, müasirləşmə, mühafizəkarlıq, təqlidçilik, azadlıq

## 1.Giriş

XIX-XX əsrlər Rusiya müstəmləkə hakimiyyəti altında yaşayan Azərbaycan türkləri üçün çox mürəkkəb bir tarixi dövr kimi səciyyəvidir. 12 oktyabr 1813-cü il Gülüstan və 10 fevral 1928-ci ildə Türkmənçay müqaviləsinin bağlanması ilə Azərbaycan torpaqlarının Rusiya və İran

* AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun doktorantı və kiçik elmi işçisi; Bakı, Azərbaycan
E-mail: mammadzadehturkan@gmail.com
https://orcid.org/0000-0001-6093-9122
**Məqaləyə istinad:** Məmmədova, T. [2022]. Azərbaycan xalqının milli özünüdərk prosesində Əli bəy Hüseynzadənin müasirləşmə yolu. *"Metafizika" jurnalı, 5*(3), səh.86-97.

***Məqalənin tarixçəsi:***
*Məqalə redaksiyaya daxil olmuşdur: 16.06.2022*
*Təkrar işlənməyə göndərilmişdir: 16.07.2022*
*Çapa qəbul edilmişdir: 03.09.2022*

arasında bölüşdürülməsi ilə başlayan müstəmləkə siyasəti qısa bir zaman ərzində Azərbaycan xalqının sosial-siyasi həyatına ciddi təsir etdi. Digər tərəfdən isə nəzərdən keçirilən bu dövr millətin həm sosial-mədəni, həm də siyasi həyatında dönüş yaratmağa nail olan intellektual şəxsiyyətlərin fəaliyyətlərinin göstəricisi kimi Azərbaycan ictimai-siyasi tarixinə qızıl hərflərlə daxil oldu. Qərbdə baş verən elmi-texniki inkişafı təhlil etməklə Şərqin Qərbdən geri qalma səbəblərinin köklərini axtaran bu şəxslər inkişafa nail olmaq üçün uzun müddət mübarizə aparmış, öz xalqlarının siyasi və mədəni həyatında yeni bir pərdə açmaq, onları düşdükləri bu çətin vəziyyətdən xilas etmək naminə var gücləri ilə fəaliyyət göstəmişdilər.

Təsis etdiyi “Əkinçi” (1875) qəzeti vasitəsi ilə savadızlıqla mübarizə aparan Həsən bəy Zərdabi, tərəqqinin əsasında biliyin dayandığını qeyd edən, biliyin əldə edilməsinin isə ən səmərəli yolunu əlifba islahatında görən [1, s.64] və Şərq və Qərbin sintezi ilə xalqın mədəni oyanışına nail olmağa çalışan Mirzə Fətəli Axundov, xalqın siyasi oyanışında müstəsna xidmətləri olan Əhməd bəy Ağaoğlu və digər ziyalıların adlarını xatırlaya bilərik.

Məqalə bu mürəkkəb tarixi zaman kəsiyinin ziyalılarının arasında özünəməxsus yolu olan və həyatını xalqının tərəqqisinə adamış Əli bəy Hüseynzadəyə həsr edilmişdir. Əli bəy Hüseynzadə XIX-XX əsr Qafqaz türklərinin azadlıq mübarizəsinin istiqamətini müəyyən edən bir şəxsiyyət kimi adını tarixə yazmışdır. Ensiklopedik şəxsiyyət olan reformist alim öz həyatını türklərin oyanışına, milli özünüdərkinə həsr etmişdir. Təsadüfi deyildir ki, yaşadığı coğrafi məkanın tanınmış alimləri tərəfindən yüksək qiymətləndirilmiş, hətta “Yalavac”(peyğəbər- Ziya Gökalp), [4, s.3] “İrqin ən mükəmməl öndəri”, [5, s.8] “bütün türk dünyasının mücahidi”, [4, s.63] “Qafqaz müsəlmanlarının atası”, [5, s.8] adlandırılmışdı.

Türk yazıçı və siyasətçisi Yusuf Akçura (1876-1935) onun haqqında belə yazır: “Əli bəy İstanbul Tibbiyyə məktəbində Qərb fikrini, Qərb ədəbiyyatını, Qərb irfan və mədəniyyətini, qısaca olaraq, Qərbi tanıtmaqda professorlardan daha çox xidmət göstərdi”. [9, s.184] Tədqiqatçı alim Ofeliya Bayramova onu bütün müsəlman və türk dünyasında azadlıq uğrunda mübarizə aparan alimi kimi təqdim edir: “Ə.Hüseynzadənin ən böyük xidməti onda idi ki, o əsərlərində müstəmləkəçi dövlətləri insanlığın ən qəddar düşməni kimi ifşa və inkar etməklə yanaşı istiqlaliyyət və azadlıq uğrunda mübarizəyə başlamış müsəlman və türk xalqlarını vahid ideya ətrafında birləşməyə çağırırdı.” [4, s.3]

Həm Şərq, həm də Qərb ruhu, elm, və mədəniyyətinə dərindən bələd olan Əli bəy Hüseynzadə bütün yaradıcılığı dövründə Şərqlə Qərbin inkişaf yolunu müqayisə edərək Qərbin tərəqqiyə çatdığı bir zamanda Şərqin

geriləməsinin, bu tərəqqidən uzaq qalmasının səbəblərini müəyyən etməyə cəhd edir.

**2.Müasirləşmə yolunda Qərbin elmi nailiyyətlərinin Şərqə tətbiqi**

*"Zamanımız bir inqilab zamanıdır. Bəşəriyyət irəliyə doğru bir addım atmaq istiyor."* [5, s.208] deyən Əli bəy Hüseynzadə Avropada qazanılmış elmi biliklərin tətbiqi yolu ilə insanların inkişafına nail olmaq və elmi biliklərə yiyələnmiş savadlı insanlardan ibarət güclü cəmiyyət qurmaq istəyirdi. Məhz bu səbəbdəndir ki, onun yaradıcılığının mərkəzində dayanan üç prinsipdən birini təşkil edən avropaçılıq Avropa elmi-texniki inkişafının izi ilə gedib, öz vətənində inkişafa nail olmaq istəyini əks etdirir. Öz xalqı arasında milli özünüdərkə və siyasi oyanışa nail olmaq üçün Əli bəy Hüseynzadə sistemli bir konsepsiya irəli sürmüşdü ki, bu konsepsiyanın da ideoloji əsasını türkçülük, islamçılıq, avropaçılıq ideyası təşkil edirdi.

Tənqidçi alim Yaşar Qarayev Azərbaycanda milli vəhdət, milli özünüdərk ideyasının ilk dəfə Əli bəy tərəfindən irəli sürüldüyünü iddia edərək göstərmişdi:

> *"Hələ lap bu yaxınlara qədər biz nəinki bütöv Azərbaycanı, adətən hətta Şimali Azərbaycanın özünü də iki əks "milli (sinfi) qütbə" bölüb ayrılıqda təhlil eləyirdik. "Siyasəti-fürusət" müəllifi isə onları cəm halda alır! XX əsrin milli vəhdət idealını Şəhriyardan əvvəl Əli bəy ifadə və təsdiq edir."* [3, s.11]

O öz fəaliyyət yolunu "Füyuzat" jurnalında bu şəkildə ifadə etmişdir:

> *"Bizim tutduğumuz yol türkçülük, müsəlmançılıq və avropaçılıqdır.Türkçülük duyğusu ilə İslam inancını və Avropa mədəniyyətini birləşdirməkdir."* [10, s.104]

Onun bu fəaliyyəti qısa bir zaman ərzində əsarət altında yaşayan türk xalqlarının özünü tanımasında, öz milli kimliyinin dərkində qığılcım rolunu oynadı və mübarizənin istiqamətini təyin etdi. Çünki Əli bəy Hüseynzadə türk xalqlarının təbiətən məğrur, əsarət altında yaşamayacaq qədər azad ruhlu olduqlarını və bir gün fikri və fiziki inqilab edib bu əsarətdən xilas olacaqlarını bilirdi:

> *"Qafqaz xəlqini qulluğa, əsarətə məluf etmək olmaz! Qafqazın üç-dörd min sənəlik tarixini qarışdırsaq onu daima öz hürriyyəti və azadlığı üçün müharibə edən görürüz."* [3, s.141] *"Onlar ya ölərlər, ya hicrət edərlər, fəqət qul olmazlar!"* [3, s.141]

Ancaq ensiklopedik biliklərə malik olan təcrübəli islahatçı alim onu da bilirdi ki, uzun müddət müstəmləkə altında yaşayıb, planlı şəkildə maarif, təhsil, idarəçilik işlərindən uzaq saxlanılan bu xalqlar birdən-birə mübarizəyə başlasalar məğlubiyyətə uğraya bilərlər. Bunun üçün əvvəl insanların

düşüncəsində inqilaba nail olmaq lazımdır. Onların elmi biliklərə yiyələnməsinə nail olmaq, öz kimliyini dərk etməsi, özünü başqalarından ayırması üçün müəyyən bir ideologiya ətrafında birləşməsinə nail olmaq lazımdır ki, düşmənlə mübarizəyə kor-koranə çıxmasınlar.

Buna görə də o öz həyat fəaliyyətini türklərin zamanla öz azadlıqlarına qovuşması, milli şüurun formalaşması və milli kimliyini dərk etməsi prosesinin konseptual və sistemli həyata keçirilməsinə həsr etmişdi.

**3. Tərəqqiyə mane olan iki amil: mühafizəkarlıq və təqlidçilik**

Geriliyin səbəbini dünyada baş verən yeniliklərə açıq olmamaqda, mühafizəkarlıqda görən ziyalı alim yalnız yenilikləri vətəninə tətbiq etməklə güclü cəmiyyət qurulacağını bilirdi:

> *“Biz gördük ki, qonşularımızın irəli getməsinin səbəbi qəzetələr, məktəblər, mədrəsələr, sənətlər, cəmiyyətlər, şirkətlər, orqanizasiyalar, teatrlar imiş!..”* [5, s.210]

Hətta cəmiyyətdə müasirləşməyə, avropalaşmağa mane olan bir sosial problemi müəyyən edən Əli bəy ona “Yangəldizm” xəstəliyi adını vermişdir. Xəstəlikdən xilas olmaq üçün ruhlara atəşli bir həyəcan verə biləcək müqəddəs bir məfkurəyə ehtiyac olduğunu iddia etmişdir. [10, s.112]

Millətin inkişafının davamlılığını təmin etmək uğrunda mübarizə aparan alim yaşadığı dövrdə Qərbin elm və texnologiyada üstünlüyünün, Şərqin bu inkişafdan geri qalma səbəblərini təqlidçilik və kor-koranə mühafizəkarlıqda görürdü. Onun fikrinə görə hər iki amil bir cəmiyyətin inkişafı üçün təhlükəli yol yaradır. Birinci tərəfin nümayəndələri yeniliyə açıq olmamaqla inkişafın qarşısını kəsirdisə, ikinci tərəf mövcud dəyərlərin aradan qaldırılması üçün çalışırdı, [3, s.37] deyən Əli bəy, “İslamda mədəniyyətə, tərəqqi və təkamülə xidmət edəcək bir şey yoxdur.” [3, s.34] fikrinə qarşı “Bizim üçün İslam xaricində nicat yoxdur.” [3, s.34] söyləyir. Heç bir xalq birdən-birə ortaya çıxmır, bu xalqı ərsəyə gətirən, birləşdirən tarixdə birgə yaşayış nəticəsində formalaşdırdıqları ortaq dəyərləridir. Belə dəyərlər sırasında dini kimlik, etnik kimlik, dil, adət, ənənələr və s. göstərmək olar ki, bu dəyərlər xalqı müəyyən edir və itirildikdə isə xalq digər xalqlar içərisində əriyib yoxa çıxa bilər. Azərbaycan filosofu Səlahəddin Xəlilovun da dediyi kimi, “Yola saldığımız minillikdə Azərbaycan xalqının mentaliteti türkçülük və islamçılığın üzvi vəhdəti, sintezi şəraitində formalaşmışdır.” [2, s.287] Buna görə də Əli bəyin ideoloji baxışlarının əsasını ortaq keçmişi qorumaq və inkişaf etdirmək yolu ilə tərəqqiyə çatmağın vacibliyi təşkil edir. Odur ki, ziyalı alim sağdan və soldan tərəqqiyə mane olan iki firqə ilə mübarizəni özünə başlıca məqsəd kimi müəyyən etmişdi: “Sağımızda duranlar firqeyi-mühafizəkarlardır ki, hər növ tazə,

cədid şeylərdən və işlərdən həzər edib insanları ələtdəvam bir nöqtədə saxlamaq xəyalındadırlar. Bunlar daim xalqın irəliləməsinə sədd çəkirlər." [3, s.34] Burada islahatçı mütəfəkkir inkişafa mane olan birinci səbəb kimi mühafizəkarlığı göstərir və yeniliyə qarşı çıxan firqə ilə mübarizənin əhəmiyyətini təsdiqləyir. Tərəqqinin əsasında yeniliyə açıq olmağı şüurlu dərk edən bir cəmiyyət formalaşdırmaqda görür. Əlbəttə, öz idrakının qapılarını xaricdən gələcək istənilən müsbət keyfiyyətli yeniliyə bağlayan bir cəmiyyət nəinki azad ola bilər, heç bir inkişafa nail ola bilməz.

Onun mübarizə aparacağı ikinci firqə qeyd etdiyimiz kimi, heç bir fəaliyyət göstərmədən birdən-birə mövcud yeniliyi təqlid etməklə cəmiyyətə tətbiq edənlər olmuşdur:

> *"Solumuzda duranlar isə rəqiblərimizi kor-koranəyə təqlid edərək birdən-birə sıçramaq, özlərini qorxulu girdablara, uçurumlara atmaq istəyirlər."* [3, s.34]

Əli bəy yaradıcılığında diqqət çəkən ən önəmli məqam da məhz onun millətin inkişafına mane olan təqlidçilərə qarşı mübarizəsi olmuşdur. Çünki, bir tərəfən Avropada əldə edilmiş tərəqqidən faydalanmağı vacib hesab edirdisə, digər tərəfdən bu inkişafa təqlid etmə yolu ilə deyil, öz milli dəyərlərindən uzaqlaşmadan, tarix boyu qazanılmış bu maddi-mənəvi dəyərlər üzərində çatmağa çalışırdı:

> *"Biz istəyiriz ki, islam ölkəsinə onların beyinləri, dimağları girsin, boğazları, mədələri girməsin"* [3, s.35]

Həm mühafizəkarlıq, həm də təqlidçilik adlandırdığı iki firqə ilə mübarizə aparması elə bir təssürat yaratdı ki, sanki Əli bəy öz millətinə bitərəf olmağı, heç bir istiqamətdə inkişafa meyl etməməyi təklif edir. Ancaq alim özü xüsusilə "Sola, Sola, Sol tərəfə!" adlanan məqaləsində bu fikrin doğru olmadığını vurğulayır:

> *"Kim dedi ki, bitərəf olmalı?.. Xeyr, əsla bitərəf olmamalı! Bitərəflik ayaq altında qalmaqdan, əzilməkdən başqa nəyə baqi olacaq? Su belə bir yerdə sakit və rakid durmaqdan qorxuyor, qorxuyor, çünki pozular, qoxar, kiflənər, yosun bağlar!.."* [3, s.136]

Əli bəy yenilik tərəfadarı olduğu üçün hər bir yeniliyi, inqilabı dəstəkləyən şəxsiyyət olmuşdur. Onun narazılığı birdən-birə heç bir qüvvə, elm, bilik sahibi olmadan yeniliyə qaçmaq, bir sözlə təməl qoyulmadan bina tikməyə qarşı idi. Görkəmli tənqidçi alim Yaşar Qarayev də zamanında bu fikri təsdiqləmişdir:

> *"Əli bəy türk ziyalısını "yevrosentrizmin funksioneri" olmağa çağırmırdı. Yox, əksinə, sözün əsl mənasında "avropalaşmağı" ... Avropaya müqavimətin üsulu vəı forması sayırdı."* [1, s.87]

Əli bəy Hüseynzadə hesab edir ki, müsəlmanların Qərb, fransız mədəniyyəti içərisində əriməsi fransız mədəniyyətinin qalibiyyəti deməkdir. Buna görə də müsəlmanlar öz kimliklərindən uzaqlaşmadan Avropanın yalnız bəşəri dəyərlərini qəbul etməlidirlər. [3, s.35] Odur ki, alim hesab edir ki, Avropanın elmi Şərqə tətbiq edilsin, şərqin dəyərləri bu yolda Avropa mədəniyyəti içərisində əriməsin. Təqlidçilik elə bir təhlükəli amildir ki, milli dəyərlərin itirilməsinə, və nəhayətdə milli kimliyin itirilməsinə səbəb ola bilər. Azərbaycanın görkəmli yazıçısı Mirzə Fətəli Axundov da təqlidçiliyin mənfi tərəflərini vurğulamaqla qeyd etmişdi ki:

> *“Biz artıq təqliddən təngə gəlmişik. Təqlid bizim evimizi yıxmışdır. İndi-indi bu qərara gəlmişik ki, təqlid boyunduruğunu boynumuzdan ataraq qaranlıqdan işıqlığa çıxaq, azad və sərbəst fikirli yaşayaq.”* [1, s.63]

Əli bəy Hüseynzadə də milli kimliyin dərk edilməsi və müstəqil idarə etməyə nail olmaq uğrunda mübarizə apardığı bu yolda təqlidçiliyi özüə təhlükə olaraq görürdü. Tarixə nəzər yetirdikdə onu daha yaxşı anlamaq olar. Bəşəriyyət tarixində bir çox xalqlar özlərinə müstəqil dövlət yarada bildikləri halda onlarla xalqlar, insan birlikləri nəinki müstəqil dövlət yarada bilmiş, öz dəyərlərinə sahib ola bilmədiyi üçün assimiliyasiya uğramış və tarix səhnəsindən silinmişdir.

Müsəlmanların ümumbəşəri elmlərə laqeyd münasibətindən narahatlığından *“Məarif, ittihad, hürriyyət! Nə qədər gözəl nemətlər! Bunları unutmayalım. Çünki əsil nicat bu üç qüvvədədir.”* [3, s.201] fikrini irəli sürən Hüseynzadə: *“Avropa ülumuna, maarifinə, ədəbiyyatına, sənaət və sənayeinə kəsbi-vüquf etməyə və millətimiz beynində nəşrə çalışmalıyız”,* [3, s.37]-deyir və“qəzetə, məktəb, kitabxana qiraətxana, teatro, islahxana”ların [3, s.100] açılmasının vacibliyini göstərir. O, öz millətinə Qərb elmi nailiyyətlərindən yararlanmaq üçün övladlarını Avropaya təhsil almağa göndərməyini məsləhət görürdü:

> *“Kimi mühəndis, kimi makinist, kimi memar, kimi aqronom olsun. Avropa məktəbində təhsil aldıqdan sonra öz məmləkətlərində tətbiq edərlər. Millətin həyatı yanız bu vasitə ilə təmin edilə bilər.”* [3, s.100]

Odur ki, islahatçı alim Avropanın nail olduğu elmi və texnoloji inkişafdan geri qalmamaq üçün Avropa təhsilindən bəhrələnməyi təklif etsə də, İslami dəyərlərin cəmiyyətin ictimai-siyasi həyatındakı rolunu da yüksək qiymətləndirir. O, xüsusilə vurğulayır ki, tarixən qazanılmış mədəni dəyərlərdən uzaqlaşmadan, Avropa elminə sahib olmaq və millətin inkişafdan geri qalmasının qarşısını almaq lazımdır. Öz mədəniyyətinin və kimliyinin

mövcudluğu məhz dünyada qazanılmış elmi yeniliklərə açıq olmaqla mümkündür.

**4. Azadlıq uğrunda ideoloji mübarizə**

ABŞ alimi Tadeuş Svietoçovski (1934-2017) Azərbaycanda siyasi oyanış və milli kimliyin formalaşmasına təkan verən şəxsin Əli bəy olduğunu bildirir:

> *"1905-ci il inqilabı ilə azərbaycanlıların milli kimliklərini müəyyənləşdirmə vaxtının gəldiyinə inanan və bu kimliyin nə olacağına şübhə etməyən şəxs Hüseynzadə idi."* [8, s.58-59]

Svietoçovski sonra belə əlavə edir:

> *"Bizə öyrənməyin hansı növü lazımdır?" - sualını verərək o sonradan məşhur şüara çevriləcək cavabı səsləndirdi: "Türkləşmək, islamlaşmaq, avropalaşmaq". Bu şüar daha sonra bir qədər dəyişdirilməklə Ziya Göyalp tərəfindən Osmanlıda döyüş nərəsinə çevrildi. Azərbaycanda isə bu üç söz bir gün müstəqil dövlətin üç rəngində simvolizə ediləcəkdi."* [8, s.59]

Bu formulun Əli bəyə aid olub-olmaması haqqında fərqli fikirlər olsa da, Yusuf Akçura da əminliklə qeyd edir ki, "Türkləşmək, islamlaşmaq, müasirləşmək formulu əsasda Hüseynzadə Əli bəyə aiddir". [6, s.72] Göründüyü kimi, Əli bəy Azərbaycanda elə bir cəmiyyət formalaşdırmaq istəyirdi ki, bu cəmiyyətin fərdləri İslam etiqadına inanan, avropa elminə yiyələnmiş insanlardan təşkil olunsun. Azərbaycan Cumhuriyyətinin banilərindən biri olan Məhəmməd Əmin Rəsulzadə (1884-1955) də özünün "Qafqaz türkləri" əsərində mövcud qənaətini təsbit edərək belə yazırdı: "Gərçi "Füyuzat" məcmuəsi türkçülük mövzusunu daha əvvəl tərvic eyləmiş, hətta mərhum Ziya bəyin sonralar "türk millətindənəm, islam ümmətindənəm və Qərb mədəniyyətindənəm" şüarı ilə ifadə etdiyi mənanı, Hüseynzadə Əli bəy "türk qanlı, islam imanlı və firəng qiyafəli olalım" formulu ilə bəyan etmişdi." [6, s.70]

M.Ə.Rəsulzadə təsdiq edir ki, Azərbaycanda milli kimliyin formalaşmasının əsasını təşkil edən və Cumhuriyyətin yaranmasında əhəmiyyətli yer tutan bu fikir Hüseynzadə Əli bəy tərəfindən 1907-ci ildə Füyuzat jurnalında "türk qanlı, islam imanlı və firəng qiyafəli" şəklində öz əksini tapmışdı. [11, s.34] Bu formul milləti rus və Avropa mədəniyyətinin təsiri altına düşməkdən xilas etdi və öz milli idarəetmə sistemini formalaşdırması üçün onun düşüncəsində inqilab yaratdı. Türk yazıçısı Sadəddin Nüzhət Ergün (1901-1946) Hüseynzadəni bu baxımdan xüsusilə yüksək qiymətləndirmiş və onu "Hüseynzadənin Qafqazı ruslardan və farslardan qurtarması bir vətənpərvər üçün təxəyyül oluna biləcək

müvəffəqiyyətlərin ən parlağı, hizmətlərin ən böyüyüdür” [6, s.132],- deyərək hörmətlə anmışdır.

Əli bəy Hüseynzadə azərbaycanlıların siyasi kimliyinin formalaşmasında müstəsna rol oynayan bir mütəfəkkir kimi müstəqil dövlətin yaradılmasına öz böyük töhfəsini verdi:

> *“Biz Qafqazlıyıq - Qafqaz əhlinin öz ümuri-idarəsinə özü baxa bilmək üçün lazım gələn muxtariyyət tələb ediniz. Müsavati-tammə istəyiniz.” [5, s.13] O inanırdı ki, bu ərazidə müstəmləkə əbədi qala bilməz, inkişaf yoluna çatmaqla azadlığa da nail olunacaqdır: “Bu məmləkətdə heç bir qüvvət hürriyyət şövqünü məhv edəməz! Heç bir cəbr və təzyiq, heç bir cəfa və əziyyət, heç bir zülm və sitəm hürriyyət odunu söndürəməz.” [3, s.142]*

**5.Nəticə**

Əli bəy Hüseynzadənin ideoloji mübarizəsinin əsasını maarifçilik yolu ilə ideal və güclü cəmiyyət formalaşdırmaq təşkil edir. Bu yolda o, avropalaşmaq istiqamətini tutmuşsa da eyni zamanda tarixən qazanılmış dəyərlərdən uzaqlaşmamaq, avropa dəyərləri içərisində yoxa çıxmamaq üçün də mübarizə aparmışdır.

Hüseynzadənin düşüncə sistemininin əsasını təşkil edən istiqamətləri aşağıdakı şəkildə göstərmək olar:

1. O, bütün fəaliyyəti boyunca müstəmləkə siyasətinə qarşı ideoloji mübarizə aparmış;
2. Müasirləşməyə və maarifçilik yolu ilə Avropada qazanılmış elm və texnoloji nailiyyətlərdən bəhrələnməyə cəhd etmişdir. Ancaq eyni zamanda müsəlmanların bu yolda “öz”-dən uzaqlaşmadan İslamın islahatı yolu ilə həqiqi, saf İslamı yaşamalarını da təmin etmək niyyətilə fəaliyyət göstərmişdir;
3. Müasirləşmə yolunda özünə və xalqına ən böyük təhlükə və mane kimi qiymətləndirdiyi mühafizəkar və təqlidçi firqənin mövqeyinə qarşı çıxmış;
4. Siyasi oyanış və milli özünüdərk prosesində xalqın azadlığa nail olması üçün öz fəaliyyəti ilə diqqətəlayiq xidmət göstərmişdir.

Azadlıq və hürriyətə çatmağın yolunu güc və qüvvətə sahib olmaqda görən ideoloq gücə sahib olmağı da Şərqin Qərbə uyğunlaşdırılmasında görürdü. Ancaq uyğunlaşdırma dedikdə, o yalnız elmi biliklərin tətbiqini nəzərdə tuturdu. Qərb mədəniyyətini təqlid etməklə onun içərisində əriməyə etiraz edirdi. Bu yolda təqlidçilik və mühafizəkarlıq ilə mübarizə aparmaqla bərabər alim təklif edirdi ki, gənclər Avropaya təhsil almaq üçün göndərilsin.

Onlar vətənlərinə qayıtdıqlarında qazandıqları bilikləri ölkələrinə tətbiq edəcələr. Beləliklə də Avropa elmi Şərqə nüfuz edəcəkdir.

## ƏDƏBİYYAT

1. Əhmədli, B. (2019). *Türkçülüyün üçlü formulu: nəzəri və tarixi aspektləri*. Bakı: Elm və Təhsil.
2. Xəlilov, S. (2016). *Şərq Zehniyyəti: mənəviyyatın prioritetliyi*. Bakı:Zərdabi LTD, MMC.
3. Huseynzadə, Ə. (2007). *Seçilmiş Əsərləri*. Bakı: Şərq-Qərb.
4. Hüseynzadə, Ə. (1994). *Siyasəti-fürusət.* Bakı: Elm.
5. Hüseynzadə, Ə. (2008) *Seçilmiş Əsərləri.* İki cilddə. (c. I). Bakı: Çaşıoğlu.
6. Turan, A. (2008). *Əli Bəy Hüseynzadə*. Moskva: SALAM press.
7. Valiyev, O. (2020). *Azerbaycan`da milliyetçilik: ulus ve devletin oluşumu.* İstanbul: Türkiye notları yayın evi.
8. Swietochowski, T. (1985). *Russian Azerbaijan 1905-1920 - The Shaping of National Identity in a Muslim Community*. Cambridge University Press.
9. Akcura, Y. (1978). *Turkculuk, Turkculugun Tarihi Gelisimi.* Istanbul: Ozdemir Basimevi.
10. *Azerbaycan Düşünce Tarihi II: Evreler, olaylar ve şahsiyyetler (19. Yüzyılın ortaları-20. Yüzyılın başları).* (2021). (Editor Ali Asker). Ankara: YTB Yayınları.
11. Resulzade, M.E., (1993). *Kafkasiya Turkleri.* Istanbul: Turk Dunyası Arastırmaları Vakfi.

## Путь современности Али бека Гусейнзаде в национальном самосознании азербайджанского народа

**Тюркан Маммадова***

* Диссертант Института Философии и Социологии НАНА; Баку, Азербайджан
E-mail: mammadzadehturkan@gmail.com
https://orcid.org/0000-0001-6093-9122

**Цитировать статью:** Маммадова, Т. [2022]. Путь современности Али бека Гусейнзаде в национальном самопознании азербайджанского народа. *Журнал «Metafizika», 5*(3), c.86-97.

***История статьи:***
*Статья поступила в редакцию: 16.06.2022*
*Отправлена на доработку: 16.07.2022*
*Принята для печати: 03.09.2022*

**Абстракт.** Статья посвящена исследованию заслуг Али бека Гусейнзаде в процессе национального самосознания и политического возобновления Азербайджана. Видный реформист старался выявить причины достижений Запада в науке и технологии, а также отстаивание Востока от данного направления. В статье его деятельность изучается в трех направлениях:

Первая часть статьи посвящена изучению задач внедрения западной науки в восточную на пути к современности. В анализе ссылаясь на произведения деятеля отражены принципы созидания мощного общества.

Во второй части анализированы два направления- защита и и подражание. Согласно высказываниям идеолога, они мешают созиданию сильного государства. Судя по выводам мыслителя, эти две стороны также служат препятствием при развитии народа.

В третьей части статьи отражено отношение к идеологическим мыслям за свободное управление.

В заключении повторно отмечены заслуги деятеля в процессе национального самопознания.

**Ключевые слова**: Али бек Гусейнзаде, современность, защита, подражание, свобода

## The way of modernization of Ali bey Huseynzade in the process of national self-awareness of the Azerbaijani people

**Turkan Mammadova***

**Abstract.** The article is dedicated to the study of Ali Bey Huseynzadeh's contribution to the realization of national self-awareness and political awakening in Azerbaijan.

During his lifetime, The prominent reformist thinker, who struggled to ensure the sustainability of the people's development, tried to determine the superiority of the West in science and technology, and the reasons for the East's lag behind in this development. For this purpose, the article examines its activities in 3 directions:

* Ph.D student of the Institute of Philosophy and Sociology of ANAS; Baku, Azerbaijan
E-mail: mammadzadehturkan@gmail.com
https://orcid.org/0000-0001-6093-9122

**To cite this article:** Mammadova, T. [2022]. The way of modernization of Ali bey Huseynzade in the process of national self-awareness of the Azerbaijani people. *“Metafizika” journal, 5*(3), pp.86-97.

***Article history:***
*Received: 16.06.2022*
*Accepted: 03.09.2022*

The first part of the article is devoted to the application of Western science to the East in the way of modernization. It mainly reflects the principles he proposed to build a strong society, based on his works.

The second part analyzes two factors, such as conservatism and imitation, which thinker considers as a threat to the formation of a strong society. These two sides are assessed as the greatest threat to the development of the people.

The third part of the article touches on the attitude to ideological views in the struggle for free governance.

In conclusion, once again emphasizes the services of Ali bey Huseynzade in the process of national self-awareness.

**Keywords:** Ali bey Huseynzade, modernization, conservatism, imitation, freedom

## REFERENCES

1. Ahmədli, B. (2019). *The triple formula of Turkism: theoretical and historical aspects.* Baku: Elm ve Tehsil (in Azerbaijani)
2. Xalilov, S. (2016). *Eastern Mindset: the priority of spirituality.* Baku Zerdabi ltd, Mmc. (in Azerbaijani)
3. Huseynzade, A. (2007). *Selected Works.* Baku, Sharq-Qarb. (in Azerbaijani)
4. Huseynzade, A. (1994). Politics and business. Baku, Elm. (in Azerbaijani)
5. Huseynzade, A. (2008) *Selected Works.* Iki cildde. (c. I). Baku: Chashioghlu. (in Azerbaijani)
6. Turan, A. (2008). *Ali Bey Huseynzade.* Moskva: Salam press. (in Azerbaijani)
7. Valiyev, O. (2020). *Nationalism in Azerbaijan: formation of nation and state.* Istanbul: Turkiye notlari yayin evi. (in Turkish)
8. Swietochowski, T. (1985). *Russian Azerbaijan 1905-1920 - The Shaping of National Identity in a Muslim Community*. Cambridge University Press. (in English)
9. Akcura, Y. (1978). *Turkism, Historical Development of Turkism.* Istanbul: Ozdemir Basimevi. (in Turkish)

10. *History of Azerbaijan Thought II: Periods, events and personalities (middle of the 19th century- beginning of the 20th century).* (2021). (Editor Ali Asker). Ankara: YTB Yayinlari. (in Turkish)
11. Resulzade, M.E., (1993). *Caucasian Turks.* Istanbul: Turk Dunyasi Arastirmalari Vakfi. (in Turkish)